*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 oktyabr 2018-ci il № 80 (2296) Qiymıəti 25 qəpik


# "On beş illik prezidentlik dövrünün möhtəşəm salnaməsi"

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prezidentlik fəaliyyətinin 15 illiyi ilə bağlı Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilir

*Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prezidentlik fəaliyyətinin 15 illiyi ilə bağlı Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissələrində və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilir.*



Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin Vətən, xalq, dövlət qarşısında müstəsna xidmətləri bir daha xatırlanır, on beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsinə nəzər salınır.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilən tədbir başlamazdan öncə ulu öndər Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, Əməkdar artist Ramil Qasımovun ifa etdiyi "İlhamlı günləri Azərbaycanın" (sözləri A.Qurbaninin, musiqisi Azad Zahidindir) mahnısının sədaları altında İlham Əliyevin ali dövlət vəzifəsində çalışdığı 15 ilin mənzərəsi qısa video-xronika vasitəsi ilə tədbir iştirakçılarına təqdim edilib.

Layihə müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani tədbirə "On beş illik prezidentlik dövrünün möhtəşəm salnaməsi" adının verilməsinin heç də təsadüfi olmadığını qeyd edərək bildirib ki, bir neçə gün öncə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri, professor Əli Həsənov da bu adla geniş bir məqalə ilə çıxış edib. "Həmin məqalə nəinki respublikamızda, eləcə də dünyanın bir çox ölkələrində böyük marağa səbəb olub. Azərbaycan Ordusunda bu münasibətlə keçirilən bütün tədbirlər də məhz bu deviz altında təşkil olunur. Həqiqətən də, Ali Baş Komandan İlham Əliyevin əsrə bərabər 15 illik prezidentlik dövrü möhtəşəm zəfər salnaməsidir və bu tarix hər birimizin gözləri qarşısında yazılmışdır."

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev mövzu ilə bağlı geniş məruzə edib. O, professor Əli Həsənov məqaləsinə istinadən qeyd edib ki, Ümummilli Liderimizin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 15 il əvvəl, 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə Ulu Öndərimizin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək 76.8 faiz səslə onu özünə yeni Prezident seçdi. "Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" ifadəsi qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam və etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013-cü və 2018-ci illərdə keçirilən Prezident seçkilərində də yenidən inamlı qələbə qazandı."

General-mayor R.Əliyev bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də cənab İlham Əliyevin misilsiz xidmətləri olduğunu nəzərə çatdırıb. O vurğulayıb ki, müasir mütəşəkkil Azərbaycan Ordusunu yaratmaq Ulu Öndərimizin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindəndirsə, bu ordunun dünyanın 50 ölkəsinin ən güclü orduları sıralarına yüksəldilməsi isə İlham Əliyevin qətiyyətli sərkərdəliyinin nəticəsində mümkün olmuşdur.

Hazırda ordumuzun maddi-texniki bazası daha da möhkəmlənir, yeni-yeni silahlar, zenit-raket kompleksləri, artilleriya qurğuları, aviasiya vasitələri, hərbi gəmilər alınır və respublikamızda istehsal olunan müdafiə sənayesi nümunələri artıq dünya sərgilərində böyük marağa səbəb olur. Əsgəri xidmət üçün ən müasir şərait yaradılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhu və vətənpərvərlik hissi durmadan artır. Bütün bunlar ölkə rəhbərliyinin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının nəticəsidir. Azərbaycan əsgəri bu etimada cavab olaraq Ali Baş Komandanın hər bir əmrinə hazırdır və istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

(Ardı 3-cü səhifədə)

# Özbəkistan Prezidenti MDB iştirakçı-dövlətlərinin Müdafiə nazirlərini qəbul edib

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının Daşkənddə keçirilən 75-ci iclası çərçivəsində Müdafiə nazirlərini qəbul edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edib.

Özbəkistan Prezidenti qonaqları salamlayaraq bildirib ki, MDB iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclası Daşkənddə birinci dəfədir keçirilir. Bu, onu göstərir ki, MDB-nin fəaliyyətində Özbəkistan yeni mərhələnin əsasını qoyub.

Dövlət başçısı bildirib ki, ötən il Özbəkistan MDB ölkələri ilə iqtisadiyyat, energetika, elm, innovasiya, cinayətkarlıqla mübarizə və digər sahələrdə fəal əməkdaşlıq edib.

Görüşdə MDB ölkələri arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub. Bu sahədə ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, peşəkar hərbi kadrların hazırlanması məsələləri də diqqət mərkəzində olub.

Qəbulda beynəlxalq və regional məsələlər, təhlükəsizliyin və sabitliyin qorunması ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Çıxış edən nazirlər ölkələrinin dövlət başçılarının salamlarını və xoş arzularını Prezident Şavkat Mirziyoyevə çatdırıblar. Onlar Özbəkistanda bütün sahələrdə həyata keçirilən islahatları, həmçinin Silahlı Qüvvələrin modernləşdirilməsi, regionda təhlükəsizliyin, sabitliyin qorunmasını yüksək qiymətləndiriblər.

## Azərbaycanın Müdafiə naziri Çexiyaya səfər edəcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov çexiyalı həmkarının dəvəti ilə oktyabrın 17-dən 20-dək Çex Respublikasında işgüzar səfərdə olacaq.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində Çexiyanın Müdafiə naziri və digər dövlət qurumlarının rəhbərləri ilə görüşlər, həmçinin bu ölkənin müdafiə sənayesi müəssisələrinin istehsal etdiyi məhsullarla tanışlıq nəzərdə tutulur.

Görüşlər zamanı Azərbaycan ilə Çexiya arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılacaq.

## “Azərbaycan və Ermənistan Müdafiə nazirləri arasında heç bir görüş olmayıb”

*Son günlər bir sıra xarici KİV-də MDB Müdafiə nazirlərinin Daşkənddə keçirilmiş 75-ci iclasında müzakirə edilən məsələlər barədə həqiqəti əks etdirməyən müxtəlif fikirlər səsləndirilir, o cümlədən guya Rusiya Müdafiə nazirinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan müdafiə nazirləri arasında Dağlıq Qarabağ münaqişəsinin həllinə dair görüş keçirilməsi iddia edilir.*

AZƏRTAC-ın bununla bağlı sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildiriblər ki, MDB Müdafiə nazirlərinin Daşkənddə keçirilən 75-ci iclasında Azərbaycan və Ermənistan Müdafiə nazirləri arasında heç bir görüş olmayıb.

"Bir daha bəyan edirik ki, iddia olunduğu kimi, nə bağlı qapılar arxasında, nə də ümumiyyətlə belə bir danışıqlar keçirilməyib. Bu kimi iddiaları qəti surətdə təkzib edir və bildiririk ki, yayılan xəbərlər tamamilə yalandır, həqiqətə uyğun deyil", - Müdafiə Nazirliyindən sorğuya verilən cavabda belə deyilir.

*Təlim*

# Topoqrafların döyüş hazırlığı yoxlanıldı

Döyüş hazırlığı planına uyğun olaraq, bu günlərdə Naviqasiya və Kartoqrafiya İdarəsinin tabeliyində olan Hidroqrafiya və Xəritəçəkmə Mərkəzində şəxsi heyət üçün taktiki-xüsusi təlim keçirildi.



İlk olaraq zabit Elman Ramaldanov 1-ci dərəcəli kapitan Davud Bağırlıya şəxsi heyətin təlimə hazır olduqlarını, əməliyyat tapşırıqları ilə tanış edildiklərini məruzə etdi.

Plana əsasən, taktiki-xüsusi təlim üç mərhələdə icra olundu. Tapşırığın birinci günündə Hidroqrafiya və Xəritəçəkmə Mərkəzinin "Yüksəldilmiş" döyüşə hazırolma vəziyyətinə gətirilməsi, topoqrafik kəşfiyyat və topogeodeziya ölçmələri həyata keçiriləcək ərazilərin müəyyənləşdirilməsi və topogeodeziya təminatının planlaşdırılması icra olundu. Bu mərhələdə ilk olaraq, mərkəz növbətçisinə mərkəzin "Yüksəldilmiş" döyüşə hazırolma dərəcəsinə gətirilməsi siqnalı və ilkin sərəncam çatdırılır. Mərkəz növbətçisi tabelikdə olan bölmələri xəbərdar etməklə yanaşı, sərəncam qaydasına uyğun olaraq şəxsi heyətin döyüşə hazırolma vəziyyətinə gətirilməsi üzrə fəaliyyətlərə nəzarət edir. Həmçinin bu mərhələdə döyüş tapşırığı aydınlaşdırılır. Yəni, qarşıdakı fəaliyyətlərin məqsədi, komandanlığın niyyəti, bölmələrin əməliyyat tapşırığı, qrupların, səyyar xəritə anbarının və müvafiq bölmələrin tapşırıqları diqqətdən keçirilir. Bundan əlavə, tapşırığı yerinə yetirmək üçün verilən vaxtın hesabatı aparılır, qərargahın iş metodu, əməliyyata hazırlıq qaydası müəyyənləşdirilir. Bütün bunlar icra olunduqdan sonra tabelikdə olan bölmələrə ilkin sərəncamlar göndərilir və nəzarətdə saxlanılır. Daha sonra vəziyyət qiymətləndirilir. Bu zaman düşmənin imkanları və yerləşdiyi mövqelər topogeodeziya cəhətdən, həmçinin əməliyyat rayonunun iqlim və hava şəraiti nəzərə alınır. Vəziyyətin qiymətləndirilməsindən nəticələr çıxarılır və niyyət müəyyənləşdirilir. Şəxsi heyətə cəmləşdirilmə istiqamətləri göstərilir, topogeodeziya təminatının aparılma üsulları müəyyən edilir.

Döyüş tapşırıqları aydınlaşdırıldıqdan, ilkin sərəncam verildikdən və vəziyyət qiymətləndirildikdən sonra mərkəzin rəisi qərarını məruzə edir. Bütün bunlar başa çatdıqdan sonra bölmələrə döyüş sərəncamı (döyüş əmri) göndərilir.

Taktiki-xüsusi təlimin ikinci mərhələsi olan topoqrafik kəşfiyyat və topogeodeziya qrupları tərəfindən ərazidə kəşfiyyat, geodeziya ölçmələrinin həyata keçirilməsi, ərazinin dəqiqləşdirilməsi, əldə olunan məlumatlar əsasında fotoplanların hazırlanması və ərazinin qiymətləndirilməsi tapşırıqları icra edilir. Bu zaman



Hidroqrafiya və Xəritəçəkmə Mərkəzi rəisi təyin olunmuş istiqamətlər üzrə topoqrafik kəşfiyyat qruplarını idarə edərək, onlarla birlikdə hərəkət edir. Topoqrafik kəşfiyyat qrupları əməliyyatlar keçiriləcək ərazidə dəqiqləşdirmələri həyata keçirir, ərazi dəyişikliyi barədə məlumatları toplayır. Topogeodeziya qrupu isə əməliyyatların keçiriləcəyi ərazidə geodeziya ölçmələrini yerinə yetirir və raket-artilleriya bölmələrinin əvvəlcədən müəyyən edilmiş mövqelərinin topogeodeziya bəndedilməsini yoxlayır. Bu tapşırıqlar icra olunarkən dəstəkləyən qüvvələrlə qarşılıqlı əlaqənin saxlanması daim təmin edilir. Mərkəzin bölmələrinin şəxsi heyəti topoqrafik kəşfiyyat qrupları və topogeodeziya qrupu tərəfindən göndərilən məlumatları təhlil edir, əməliyyatlar keçiriləcək ərazilərin böyükmiqyaslı fotoplanlarını hazırlayır.

Mərkəz rəisinin qərarı xəritələrə işlənildikdən, səyyar xəritə anbarına xəritə ehtiyatı yükləndikdən sonra qruplara döyüş sərəncamı verilir. Həmçinin qrupların hazırlığı yoxlanılır, tapşırıqlar dəqiqləşdirilir.

Yekunda taktiki-xüsusi təlimin üçüncü, son mərhələsi olan səyyar xəritə anbarının, topoqrafik kəşfiyyat və topogeodeziya qruplarının əməliyyatlar keçiriləcək əraziyə çıxışı və qoşunların topoqrafik xəritələrlə və ya xüsusi kartoqrafik-təsviredici materiallarla təmin edilməsi tapşırıqları yerinə yetirilir. Mərkəz rəisi səyyar xəritə anbarının, topoqrafik kəşfiyyat və topogeodeziya qrupları təyin olunmuş ehtiyat komanda məntəqəsinin yerləşmə yerinə çıxışını təmin edir. Səyyar xəritə anbarı isə təyin edilən ehtiyat komanda məntəqəsi yerləşən ərazidə açılır, xəritə anbarının işi təşkil edilir.

Taktiki-xüsusi təlimin yekununda bölmələrin verilən tapşırıqların yerinə yetirilməsinin təhlili keçirildi. Qeyd olundu ki, mərkəzin tabeliyində olan bölmələr bütün topoqrafik tapşırıqları müvəffəqiyyətlə yerinə yetirdilər. Beləliklə, növbəti taktiki-xüsusi təlimin nəticələri yüksək qiymətləndirildi.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# "On beş illik prezidentlik dövrünün möhtəşəm salnaməsi"

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti İlham Əliyevin Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda böyük inam hissi ilə dediyi "Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın Dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır" kəlamları alqışlarla qarşılanıb. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı "Azərbaycan Bayrağı" xoreoqrafik kompozisiyasını məharətlə təqdim edib.



Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov Azərbaycan tarixinin əsrə bərabər 15 ilinin uğurlarından danışıb, dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin məhz Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirildiyini bildirib.

Millət vəkili, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elman Nəsirov 15 illik prezidentlik dövrünün elmi əsaslarla izahını verərək, ölkə rəhbərinin daxili və xarici siyasətinin uğurlu nəticələrinə dair fikirlərini bildirib.



Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov ulu öndər Heydər Əliyevin vaxtında olduğu kimi, son 15 il ərzində də Prezident İlham Əliyevin şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşdığını, onların dövlət hesabına fərdi ev, mənzil, minik maşını ilə təmin olunduqlarını minnətdarlıqla diqqətə çatdırıb.

Tədbirdə vətənpərvərlik mahnıları və şeirlər ifa olunub. "Ali Baş Komandanın hər bir əmrinə hazırıq!" adlı ədəbi-bədii kompozisiya ilə mərasim başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Düşüncələr*

# Ordumuz - gücümüz, qüdrətimiz

Ordu anlayışı bir millət olaraq bütün mənasıyla bizim düşüncəmizdə həmişə yaşayıb, varlığımızda həmişə var olub; bu hiss, bu duyğu tərbiyəmizdə, inkişafımızda, sağlam böyüməyimizdə və gələcəyə hazır olmağımızda çox gərəkli işlər görüb, indi də görməkdədir... Azad olsaq da, olmasaq da, yaşadığımız minilliklər boyu ordunun mənasını dərindən anlamışıq; evlərimizdə yalnız övlad yox, əsgər böyütmüşük, şifahi ədəbiyyatımızda, xalq yaradıcılığımızda da bu hisslərin, duyğuların gözəl ifadələri var. Ona görə də deyə bilərik ki, ordu anlayışı xalqın ruhunda yaşayan and yerlərimiz kimi mənəvi dəyərlərimizdəndir. Müstəqilliyə gedən yol da bu dəyərlərdən keçir. Azadlıq da belə qazanılır... Biz bir millət kimi, xalq kimi həmişə bu duyğuların, bu düşüncənin içində olmuşuq. Ordu həyatını, əsgərlik xidmətini ömrümüzün müqəddəs borcu hesab etmişik, çünki yerdə torpağımızı, göydə bayrağımızı elə qorumuşuq... Elin orduya üz tutub yaratdığı və həmişə fəxrlə işlətdiyi ifadədi: "Yerdə torpağımızı, göydə bayrağımızı qoru, çünki ora Vətənimizdir!"

Ordu xalq gücünün təzahür formasıdır. Xalqın gücü əgər düzgün idarə olunarsa, dəyərləndirilərsə, inkişafı bir də ordusuyla ölçülər... Xalqın özü deyir:

*...Ordubada...*
*Yol gedər Ordubada.*
*Ağıllı Sərkər istər,*
*Verməsin ordu bada.*

Sərkərdəni də xalq yetirir, yəni, ordu yaranıbsa, sərkərdəsi də yaranacaq. Çünki ordu xalqla bir yerdədi. Xalqın nəzarəti, diqqəti var üzərində, nigarançılığı var həm də. Ona görə də hər bir ordu mənsub olduğu, yəni, içindən çıxdığı xalqa bənzəyər, ordu xalq gücünün bir, bütöv əl-ələ, çiyinçiyinə olduğu yerdi, Xalqın narahatçılığı da ona görədi: "...ağıllı Sərkər istər, verməsin ordu bada." Ordunu sevmək gec-tez xalq sevgisinə gətirib çıxaracaq. Biz bunu ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin timsalında gördük...

"Lələ" xalq arasında böyük deməkdi, "sərkərdə" mənasında da düşünmək olar. "Lələtəpə" qələbəsinə də qeyd etdiyim bu möhtəşəm birlik, bərabərlik duyğularının gücüylə gəlib çıxdıq. Bununla belə hələ çox qələbələr yolumuzu gözləyir... Ordumuzla bağlı minilliklər boyu ruhumuzla daşıdığımız bu hiss, bu duyğu bizi həmişə güclü saxlayıb, işğaldan, məhv olmaqdan, ölümlərdən qoruyub. Ona görə də yüz illiklərlə igidlərini - sərkərdələrini düşüncələrində yaşadıb, bu günəcən gətirib, sabahlara hazır olub, oğul deyib tərənnüm edib, adına nəğmələr oxuyub. "Koroğlu" kimi, "Dədə Qorqud" kimi yüzlərlə qəhrəmanlıq dastanları yaradıb, bizi bu gün təntənəsini yaşadığımız müstəqilliyimizə qovuşdurub. Biz bu gün ordumuzla bir yerdə ucalara qalxıb boyumuzu göstərə bilirik! Bizi görmək istəməyənlər belə artıq bizi görməyə başlayıb!

**Mövlud SÜLEYMANLI,**
**xalq yazıçısı**

# Hərbi qulluqçuların ehtiyata buraxılmasına həsr olunmuş təntənəli mərasim keçirilib

*"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" ölkə Prezidentinin müvafiq sərəncamının icrası ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən birlik, birləşmə və hərbi hissələrdə tədbirlər həyata keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhəboyu zonada yerləşən "N" hərbi hissəsində xidmət müddəti başa çatmış bir qrup hərbi qulluqçunun ehtiyata buraxılması ilə əlaqədar "Vətənə xidmətinə görə sağ ol!" adlı təntənəli yola salma mərasimi keçirilib.

Tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin ifası və Dövlət bayrağının mərasimə gətirilməsi ilə başlayıb.

Sonra xidmət müddəti başa çatmış hərbi qulluqçular döyüş növbətçiliyini qəbul edən gənc əsgər yoldaşlarına rəmzi olaraq silah, zirehli jilet və dəbilqələri təqdim ediblər. Gənc əsgərlər uğurla, Vətənə şərəflə xidmət edəcəklərinə, torpaqlarımızın keşiyində ayıqsayıq dayanacaqlarına söz veriblər.

Tədbirdə Müdafiə Nazirliyi rəhbərliyinin və birlik komandirinin ehtiyata buraxılan şəxsi heyətə təbriki çatdırılıb.

Mərasimdə çıxış edən zabitlər Münasib Babayev, Elşad Əbilov, Eldəniz İmaməliyev, Seymur Həbibullahov və əsgər valideyni Amid Bayramov ehtiyata buraxılan hərbi qulluqçuları təbrik edərək, döyüş növbətçiliyini yeni qəbul edən əsgərlərə gələcək xidmətlərində uğurlar və qələbə sevinci arzulayıblar.

Təntənəli mərasim xidmət müddətində fərqlənmiş və nailiyyətlər əldə etmiş hərbi qulluqçuların mükafatlandırılması, bayram naharı və konsert proqramı ilə başa çatıb.

# Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 16-da Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçiriblər.

AZƏRBAYCAN ORDUSU

# Abdulla Qurbani: Əli Həsənovun məqaləsi hər bir əsgərimizi Prezident İlham Əliyevin rəhbərliyi ilə daha parlaq zəfərlərə ruhlandırır

*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" adlı məqaləsi nəinki respublikamızda, eləcə də dünyanın bir çox ölkələrində böyük marağa səbəb olub. Bu məqalə Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prezidentlik fəaliyyətinin 15 illiyi münasibətilə keçirilən tədbirlərin də əsas tezislərinə çevrilib.*

AZƏRTAC xəbər verir ki, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani həmin məqaləyə münasibət bildirərək deyib: "Ali Baş Komandan İlham Əliyevin prezidentlik fəaliyyətinin 15 ili, həqiqətən də, xalqımızın və dövlətimizin zəfər salnaməsidir və bu salnamənin qısa xronikasını görkəmli ictimai-siyasi xadim Əli Həsənov bütün reallıqları doğru-dürüst əks etdirməklə oxuculara təqdim edib. Bu möhtəşəm zəfər salnaməsi hər birimizin gözləri qarşısında yazılıb desək, heç də yanılmarıq. Bu möhtəşəm zəfər salnaməsi xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi, hörmətli Əli müəllimin də qeyd etdiyi kimi, İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam" ifadəsi ilə yazılıb.

Mən bu məqaləni təhlil etmək, uğurlu daxili və xarici siyasəti ilə artıq dünyada məşhurlaşmış Prezidentimizin, Ulu Öndərimizin layiqli davamçısı İlham Əliyevin rəhbərliyi altında ölkəmizin qazandığı uğurlardan, dünyanı heyrətə gətirən möhtəşəm layihələrdən, vətəndaşlarımızın firavan, xoşbəxt yaşaması üçün görülən məqsədyönlü işlərdən geniş bəhs etmək niyyətində deyiləm. Onsuz da professor Əli Həsənov bütün sahələrə yetərincə diqqət yetirib və haqlı olaraq 15 ilin prezidentlik dövrünü möhtəşəm zəfər salnaməsi kimi dəyərləndirib. Məqalədə böyük fəxarət hissilə qeyd edilir ki, dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq".



Polkovnik A.Qurbani qeyd edib ki, Ali Baş Komandanın Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri həmişə prioritet olub və Azərbaycan Ordusunun 100 illik tarixində son 15 ilin xüsusi yeri var. Ulu öndər Heydər Əliyevlə başlanan ordu quruculuğu prosesinin yeni mərhələsi Prezident İlham Əliyevin rəhbərliyi altında daha geniş vüsət alıb və bu gün də uğurla davam etməkdədir. Silahlı Qüvvələrimiz dövlət səviyyəsində hər cür diqqət və qayğı ilə əhatə olunub. Bu, Azərbaycan əsgərini sevindirir və onu daha böyük qələbələr qazanmağa ruhlandırır. 2016-cı ilin aprel döyüşləri zamanı Füzuli, Cəbrayıl, Ağdərə və bu ilin mayında Naxçıvan Muxtar Respublikasında min hektarlarla ərazinin, mühüm strateji yüksəkliklərin düşmən işğalından azad edilməsi bir daha təsdiq etdi ki, Azərbaycan əsgəri Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna verdiyi möhtəşəm töhfələrə, şəxsi heyətə göstərdiyi diqqət və qayğıya, böyük etimada cavab olaraq müqəddəs döyüşlərə atılmağa, torpaqlarımızı işğaldan azad edərək Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə hər an hazırdır və buna qadirdir.

"On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" məqaləsində müəllif Prezident İlham Əliyevin rəhbərliyi altında şəhid ailələrinə, müharibə veteranlarına və əlillərinə də daim xüsusi qayğı ilə yanaşıldığını, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılmasını, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi sahəsində ardıcıl tədbirlərin görüldüyünü müdrik və qətiyyətli Prezidentimizin Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqe ifadə edərək "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli torpaqlarına qayıtmalıdırlar" dediyini də nəzərə çatdırıb.

Ümumiyyətlə, kim ki ötən 15 ilin zəfər salnaməsini vərəqləmək istəyirsə, professor Əli Həsənovun bu məqaləsinə müraciət etsə kifayətdir. Hazırda Azərbaycan Ordusunun bütün birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində professor Əli Həsənovun bu məqaləsi keçirilən bütün tədbirlərin əsas tezisləridir və bu məqalə hər bir Vətən əsgərini Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında möhtəşəm zəfər salnaməsinə yeni-yeni parlaq səhifələr yazmağa ruhlandırır.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Məzəm kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Qaraqaşlı, Kəngərli, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***15 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***16 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri hərbi hissəni ziyarət ediblər



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin hərbi hissəyə tanışlıq səfəri təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində 15 dövləti təmsil edən hərbi attaşelik aparatlarının 22 nümayəndəsinə hərbi hissə haqqında brifinq verilib. Sonra onlar burada şəxsi heyət üçün yaradılan şərait və hərbi hissənin silahlanmasında olan döyüş texnikası ilə tanış olublar.



Qonaqlar ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

18 Oktyabr Dövlət Müstəqilliyi Günüdür

# “Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir”

*Azərbaycan 1918-1920-ci illərdə müsəlman Şərqində ilk parlamentli, demokratik, dünyəvi dövlət qurmuş, lakin xalqımızın böyük mübarizələr, savaşlar sayəsində nail olduğu bu müstəqillik uzun sürməmişdir. Tarix üçün çox qısa bir zaman olsa da, əhəmiyyəti baxımından xalqımızın qan yaddaşına əbədi həkk olunmuşdur. Mövcud olduğu müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti bütün vətəndaşlarını konstitusion hüquqlarla təmin etmiş, daxili quruluşundan asılı olmayaraq, bütün ölkələrlə münasibətləri faydalılıq əsasında yaratmağa çalışmışdır.*



Cümhuriyyətin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və s. sahələrdə atdığı addımlar yarımçıq qalmamış, müstəqilliyini XX əsrin sonlarında yenidən bərpa edən dövlətimiz varislik ənənələrini yaşatmış, inkişaf etdirmişdir.

1991-ci ildə yenidən əldə etdiyimiz müstəqillik xalqımızın ötən əsrin əvvəllərində yaşadığı şərəfli tarixin şüurlarda yaratdığı milli oyanışın, azadlıq eşqinin bəhrəsi idi. Həmin il avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında bəyannamə, oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Bununla da Azərbaycan müstəqil, demokratik və dünyəvi bir dövlət kimi yenidən mövcudluğunu dünyaya bəyan etdi. Dövlət müstəqilliyimizi dünya ictimaiyyəti tanıdı və qəbul etdi.

Həmin tarixi və möhtəşəm gündən artıq 27 illik bir müddət keçir. Bu müddət ərzində Azərbaycan bütün sahələrdə misli görünməmiş inkişafa, tərəqqiyə nail olsa da, əldə edilən uğurlar asanlıqla başa gəlmədi. Müstəqillik və azadlıq qurbanlar bahasına, çətinliklə əldə olunur. Müstəqilliyimizin ilk illərində xalqımız, sözün həqiqi mənasında, ağır, məşəqqətli günlər yaşadı. 1988-ci ildən Ermənistanın Azərbaycana torpaq iddiası ilə başlayan münaqişə ölkəmizdə vəziyyəti son dərəcə ağırlaşdırdı. Ermənistandakı dədə-baba torpaqlarından deportasiya olunan soydaşlarımız Azərbaycana pənah gətirdi. Torpaqlarımızda müharibə gedirdi, çadır düşərgələrinin sayı gündən-günə artırdı. Dağlıq Qarabağ, həmçinin ətrafındakı ərazilər erməni qəsbkarları tərəfindən işğal olundu. Bir tərəfdən müstəqilliyimizin başı üstünü almış real təhlükəni sovuşdurmaq, digər tərəfdən erməni təcavüzündən xilas olmaq, torpaqlarımızı müdafiə etmək, ölkəmizin ərazi bütövlüyünü qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızı azad etmək kimi Vətən qarşısındakı borcumuzu yerinə yetirməliydik. Xalqımız öz gücünü və qüdrətini göstərməliydi. Dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda respublikamızın o zamankı rəhbərləri belə vacib, taleyüklü vəzifələrin öhdəsindən gələ bilmirdilər.

Məhz buna görə də torpaqlarımızın xeyli hissəsi itirildi, ölkədə xaos, anarxiya baş alıb getdi, vətəndaş müharibəsi təhlükəsi yarandı, qardaş qırğını başlandı, qanunçuluğun əsasları ciddi şəkildə zəiflədi, cinayətkarlıq halları görünməmiş səviyyəyə çatdı, dövlətçiliyimiz və müstəqilliyimiz təhlükə qarşısında qaldı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir".

Azərbaycanın müstəqil ölkə kimi mövcudluğu, dövlətçiliyin qorunub saxlanılması, möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən də atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Azərbaycan daxilində yaranan nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlandı ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilib. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var...

Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müasir Azərbaycan dövlətinin qurucusudur. Ulu Öndərin zəngin irsi, ideyaları və tövsiyələri müasir cəmiyyətimizin inkişafının nəinki ideya mənbəyidir, həmçinin möhtəşəm səfərbəredici amildir. Ümummilli Liderin təlatümlərdən, təhlükələrdən çıxararaq qurub yaratdığı Azərbaycan indi Prezident İlham Əliyevin rəhbərliyi altında bütün dünyaya möhtəşəm yüksəliş dinamikası nümayiş etdirir. Ulu Öndərin yaratdığı quruculuq şəraiti indi Azərbaycanın real siyasi və iqtisadi həyatında təzahür edir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanılır, inkişaf etdirilir.

Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına eyni dərəcədə diqqət yetirilir.

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi inkişaf tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

---

Təqvimimizdəki yaddaqalan, böyük sevinclə gözlədiyimiz əlamətdar günlərdən biri də 18 oktyabr tarixidir. Bu tarix kiçikdən tutmuş böyüyə qədər hər birimizin yaddaşına böyük hərflərlə yazılıb. Bu tarixi gün bütün ölkə vətəndaşları üçün çox müqəddəs və əzizdir. Çünki həmin gün xalqımız bir əsrdə ikinci dəfə müstəqillik qazanmışdı. İndi o əlamətdar tarixdən 27 il keçir. Ötən hər gün müstəqilliyimiz daha da möhkəmlənir. Müstəqilliyimiz möhkəmləndikcə də ölkəmizin, dövlətimizin beynəlxalq aləmdə nüfuzu durmadan artır.

Təbiidir ki, müstəqillik qazandığımız, keçmiş ittifaqın buxovlarından azad olduğumuz 18 oktyabr günü hər birimiz üçün unudulmazdır. 27 il əvvəl - 1991-ci ilin 18 oktyabrında Azərbaycan Respublikasının Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Beləliklə, Azərbaycan 1920-ci ilin aprelində bolşeviklərin istilası zamanı itirdiyi müstəqilliyini yenidən bərpa etdi. Xalqımızın tarixinə böyük hərflərlə yazılmış həmin günü indi hamımız qürur və iftixar hissi ilə qeyd edirik.

Həmişə istənilən bir işin əvvəlində çətinlikləri, maneələri dəf etməli oluruq. Müstəqilliyimizin ilk illərində də Azərbaycanın siyasi və iqtisadi quruculuğunda müəyyən çətinliklər meydana çıxmışdı. O vaxtlar ölkəyə rəhbərlik edənlərin kifayət qədər idarəetmə qabiliyyəti olmadığından, onlar müstəqilliyimizin möhkəmlənməsi üçün yetərli işlər görə bilmirdilər. Müstəqilliyimiz təhlükə altında idi. Ölkədə baş verən xaos vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Çox çətin bir vəziyyət yaranmışdı. Belə bir vaxtda müstəqilliyimizin möhkəmləndirilməsi, ölkənin inkişaf etdirilməsi üçün xalq ümummilli liderimiz Heydər Əliyevə üz tutub hakimiyyətə dəvət etdi. Ulu Öndər ölkəni xaosdan xilas etmək, müstəqilliyimizi daha da möhkəmləndirmək üçün 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdı. Ümummilli liderimiz Heydər Əliyev çox qısa bir zamanda müstəqilliyimizi daha da möhkəmləndirdi, onu əbədi və dönməz etdi. Ulu Öndər zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, doğma Vətənə tükənməz sevgisi ilə Azərbaycanı daha da inkişaf etdirərək, zirvələrə ucaltdı.

Əsl müstəqillik ölkənin öz sərvətlərinin tam sahibi olmasıdır. Bu, müstəqilliyin vacib amillərindən, zəruri atributlarından biridir. Bu, yaşanmış tarixin sınağından çıxmış sübut olunmuş bir həqiqətdir. Yaxın tariximizdən hamımıza yaxşı məlumdur ki, 20 sentyabr 1994-cü ildə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq dünya qarşısında sərvətlərinin mütləq sahibi olduğunu bir daha sübut etdi. Beləliklə, müstəqilliyimizin iqtisadi əsası qoyuldu. İnkişafa doğru çox uğurlu addımlar atıldı. Bu günə qədər ölkə büdcəsinə həmin müqavilədən milyonlarla vəsait daxil olub.

Qazanılan və əldə olunan iqtisadi dirçəliş nəticəsində, başqa sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirildi. Qısa müddət ərzində Azərbaycanın müstəqilliyinin qarantı olan güclü, qüdrətli Silahlı Qüvvələr yaradıldı. Bu gün tam inamla deyə bilərik ki, Azərbaycan Ordusu dövlətimizin müstəqilliyini qorumağa və torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadir və hazırdır. Bunu zabit və əsgərlərimiz 2016-cı ilin aprel döyüşlərində hünər və cəsarətləri ilə bir daha dünyaya sübut etdilər. Onlar erməni işğalçılarının hücumlarını dəf edərək geri oturtdular. Gərgin döyüşlərdə düşmənin xeyli canlı qüvvəsi və döyüş texnikası məhv edildi. Cəsur zabit və əsgərlərimiz sübut etdilər ki, ordumuz güclü və qüdrətlidir.

Ümummilli lider Heydər Əliyevin zəngin irsi müasir cəmiyyətimizin, müstəqilliyimizin ən inamlı ideya mənbəyidir. Müdrik rəhbərin böyük əziyyətlər bahasına qurub-yaratdığı müstəqil Azərbaycan bu gün Ulu Öndərin siyasi irsinin layiqli davamçısı möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf etdirilir. Sabahlara doğru inamlı addımlar atılır. Bu gün ölkəmizin üçrəngli bayrağı dünyanın ən nüfuzlu ölkələrinin bayraqları ilə bir sırada dalğalanır. Müstəqilliyi gündən-günə möhkəmlənən bir ölkənin vətəndaşı olmaqdan hamımız qürur duyuruq. Fəxr edirik ki, belə güclü və qüdrətli dövlətimiz var.

Azərbaycan Ordusunun başqa hərbi hissə və birləşmələrində olduğu kimi Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də müstəqilliyimizin qazanılması və möhkəmləndirilməsi istiqamətində aparılan islahatlar və əldə olunan uğurlar mövzusunda tədbirlər keçirilir. Sabahımızın zabitləri olacaq kursantlara müstəqilliyimizin şərəfli tarixindən geniş məlumat verilir. Mövzuya uyğun olaraq qısametrajlı filmlər nümayiş etdirilir. Bütün bunlar isə kursantların müstəqilliyimiz haqqında biliklərini daha da artırır.

Ümummilli liderimiz Heydər Əliyev müstəqilliyimizdən həmişə böyük inamla danışaraq deyirdi: "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir". Müstəqilliyimizin əbədi, daimi və dönməz olması üçün isə, təbiidir ki, ölkəmizin hər bir vətəndaşı səylə çalışmalı, üzərinə düşən vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirməlidir.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Şəxsi heyətin qida və əşya təminatında ciddi yeniliklər tətbiq olunur



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun bütün hərbi hissələrində şəxsi heyətin təchizat, təminat və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.*

Göstərilən fəaliyyəti dəyərləndirmək, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin ölkəmizin qida təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirlər və bu istiqamətdə normativ-hüquqi aktların tələblərinə uyğun olaraq yeni inşa olunan Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasının açılışında iştirak etmək məqsədilə oktyabrın 10-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti adıçəkilən qurumda olub.

Görüşdə Müdafiə nazirinə məlumat verilib ki, ən müasir texniki avadanlıqlarla təchiz edilmiş laboratoriyada qida təhlükəsizliyinə nəzarət dövlət standartlarına, normativ texniki və digər rəhbəredici sənədlərin tələblərinə uyğun olaraq həyata keçirilir. Laboratoriyada Azərbaycan Ordusunun şəxsi heyəti üçün tədarük edilən bitki, heyvan və qeyri-üzvi mənşəli ərzaq məsullarının müayinəsi aparılır. Xüsusi ayrılmış otaqlarda qida məhsullarının fiziki-kimyəvi, bakterioloji, radioloji və toksikoloji müayinəsi həyata keçirilir, ərzağın tam yararlı olmasına və keyfiyyət standartlarına uyğun gəlməsinə nəzarət edilir.

Məruzə olunub ki, burada çalışan şəxsi heyətin normal fəaliyyəti və rahat istirahəti üçün də ərazidə şərait yaradılıb.

Sonra Müdafiə naziri Mərkəzi Əşya Bazası və Mərkəzi Ərzaq Anbarları ərazisində yeni inşa edilmiş saxlanclara da baxış keçirib. Qeyd edək ki, bu növ bazalar cəbhəboyu zonada da fəaliyyət göstərir və müxtəlif istiqamətlərdə yerləşən hərbi hissələrin şəxsi heyətinin təminatını tam ödəyir.

Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyəti üçün nəzərdə tutulmuş ərzaq və əşya əmlakının etalon nümunələrinə baxıb, burada nümayiş etdirilən məhsulların, eləcə də bütün növ geyim formalarının rahatlığı, keyfiyyəti və davamlığı ilə də maraqlanaraq müvafiq göstərişlər verib.

Müdafiə nazirinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasına səfərindən sonra burada həyata keçirilən işləri, yenilikləri öyrənmək məqsədilə adıçəkilən qurumda olduq. Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasının rəisi mayor Anar Məmmədov bildirdi ki, qida təhlükəsizliyinə ciddi riayət olunması hərbi qulluqçularımızın sağlamlığı üçün zərərli olan bioloji, kimyəvi və fiziki təhlükəli amillərdən qorunmağa imkan verir. "Qidanın tərkibində təhlükəli maddələrin yaranması, sonradan yaranmaq və ya sonradan qidanın tərkibinə daxil olmaq ehtimalının istisnası deməkdir. Laboratoriyamızda qida məhsullarının təhlükəlilik səviyyəsi onun tərkibində qalan təhlükəli faktorlarla ölçülür. Qeyd etmək istərdim ki, təhlükəli faktor üç qrupa bölünür - bioloji, kimyəvi və fiziki. Bioloji təhlükəli faktorlar qrupuna yoluxucu bakteriyalar, toksin ifraz edən orqanizmlər, parazitlər, viruslar və s. mikroorqanizmlər; kimyəvi təhlükəli faktorlar qrupuna təbii şəkildə yaranan toksinlər, qida əlavələri, pestisid qalıqları, baytarlıq preparatlarının qalıqları, ətraf mühit çirkləndiriciləri, kimyəvi çirkləndiricilər, allergenlər və s; fiziki təhlükəli faktorlar qrupuna isə metal qırıntıları, şüşə qırıntıları, istehsal prosesləri zamanı ərzaq məhsullarına düşmək ehtimalı olan əşyalar, daş, sümük qırıntıları və s. daxildir".

Zabit onu da qeyd etdi ki, qida məhsulunda təhlükəli faktorların yer alması ehtimalı istənilən mərhələdə yarana bilər. Onun sözlərinə görə, məhsul xammalın istehsalı, saxlanması, daşınması, emalı, qablaşdırılması, hazır məhsulun saxlanması və daşınması zamanı təhlükəli faktorların məhsulun tərkibinə düşmək ehtimalı istisna deyildir.

- Əsas məqsədimiz şəxsi heyətin qidalanmasında olan bütün ərzaq növlərini dərindən yoxlamaqdır, - deyə zabit söhbətinə davam etdi. - Bütün bunları nəzərə alaraq yuxarı komandanlığın göstərişinə əsasən müasir tələblərə cavab verən, qabaqcıl ölkələrin istehsalı olan avadanlıqlarla təchiz edilən yeni laboratoriya tikilib. Laboratoriyamız 6 bölmədən ibarətdir. Qida məhsulları Mərkəzi Ərzaq Anbarına qəbul edilməzdən əvvəl mütəxəssislər tərəfindən onlardan lazımi nümunələr götürülürək, fiziki-kimyəvi, bakterioloji, radioloji və toksikoloji müayinə həyata keçirilir. Ərzaq ekspertiza bölməsində qida məhsullarının fiziki-kimyəvi müayinələri aparılır. Mütəxəssislərimiz tərəfindən məhsulların turşuluğu, yağlılığı, nəmliyi, ağır metalların və quru maddənin təyini aparılır. Bakterioloji bölməmizdə bütün ərzaq növlərinin bakterioloji və bakterioskopit müayinələri həyata keçirilir. Götürülmüş nümunələr əkilir, termostatda saxlanılır. Əldə etdiyimiz nəticələrdən sonra qida məhsulu haqqında rəy verilir. Radioloji və toksikoloji bölməmizdə isə məhsulların nitratı, pestisid qalıqları və radioaktiv fon ölçülür. Növbəti serologiya bölməsində iri və xırda buynuzlu heyvanlardan qan və kal nümunələri götürülərək bakteriskopit müayinədən keçirilir. Bu proses heyvanlarda hər hansı bir xəstəliyin olmasını vaxtında aşkar etməyimiz üçün vacibdir. Xüsusi təmizləmə bölməmiz yardımçı təsərrüfatların və ərzaq saxlanılan obyektlərin, ərazilərin texniki və kimyəvi təmizlənməsini həyata keçirir. Müalicə-profilaktika bölməsində mütəxəssislərimiz kənd təsərrüfatı müəssisələrində iri və xırda buynuzlu heyvanların müayinəsi və müalicəsi ilə məşğuldur. Yeni tikilən laboratoriyamız bütün bu proseslərdə bizə geniş imkanlar verir. Əgər əvvəllər bir məhsulun keyfiyyəti bir neçə saata yoxlanılırdısa, indi həmin prosesə daha az vaxt sərf edirik. Bu da əsgərlərimizin sağlam mənşəli məhsullarla qidalanmasında böyük əhəmiyyət kəsb edir. Üzərimizə düşən vəzifələrin icrasında



bir əsas məqsədimiz var: səngərdə mətinliklə duran əsgərlərimiz keyfiyyətli qidalarla təmin olunaraq sağlam və cəsur olsunlar. Axı onların da qarşısında çox mühüm və müqəddəs vəzifə dayanır - işğal edilmiş torpaqlarımızı düşmən tapdağından azad etmək!

Növbəti həmsöhbətimiz Mərkəzi Əşya Bazasının rəisi polkovnik-leytenant Şaiq Abbasov bildirdi ki, bazada müqavilələrə əsasən müəssisələrdən daxil olan əşya əmlaklarının keyfiyyəti, əvvəlcədən təyin olunmuş ölçülərə uyğun olaraq miqdarı və etalon nümunələrə uyğunluğu yoxlanılır, çeşidlərinə görə saxlanclarda yerləşdirilərək qorunub saxlanılır.



- Son illərdə Mərkəzi Əşya Bazasında əsaslı təmir-tikinti və yenidənqurma işləri mərhələli şəkildə planlaşdırılaraq həyata keçirilir, - zabit dedi. - 2014-cü və 2016-cı illərdə 2 bina yenidən tikilib, 2018-ci ildə isə 3 bina əsaslı təmir olunub. Ümumilikdə 6 saxlanc yenidən qurularaq əşya-əmlakların səliqəli və çeşidlərlə saxlanılması üçün hazır vəziyyətə gətirilib. Qeyd edim ki, əvvəl saxlanc binaları əşya-əmlakların mövcud tələblərə uyğun saxlanılması üçün əlverişli deyildi. Bu isə qarşıya qoyulan vəzifələrin tam məsuliyyəti ilə icra edilməsinə maneçilik yaradırdı. Yeni inşa olunan saxlanc binaları isə müasir tələblərə tam cavab verir. Müəssisələr tərəfindən gətirilən əmlaklar ilk növbədə Müdafiə Nazirliyinin Satınalma və Təchizat İdarəsinin tabeliyində olan əşya əmlakının müayinə və keyfiyyətinə nəzarət laboratoriyasında yoxlanılır və yalnız müsbət rəylər alındıqdan sonra müvafiq qaydada Mərkəzi Əşya Bazasının tabeliyində fəaliyyət göstərən əşya əmlakının qəbulu bölməsinin nəzarəti altında saxlanclarda yerləşdirilir. Müayinə və keyfiyyətə nəzarət laboratoriyası yeni qurğu və avadanlıqlarla təchiz edilib.

Polkovnik-leytenant Şaiq Abbasov onu da bildirdi ki, Mərkəzi Əşya Bazası Müdafiə nazirinin müvafiq qərarını rəhbər tutaraq il ərzində 4 dəfədən az olmayaraq qoşun növlərini müxtəlif nəqliyyat vasitələri ilə əşya-əmlaklarla təmin edir. Şəxsi heyətin mütəmadi olaraq mövsümə uyğun əşya təminatı daim nəzarətdə saxlanılır. Qarşıda duran əsas vəzifələrdən biri sərt iqlimli, yüksək dağlıq ərazilərdə yerləşən bölmələrin təminatını həyata keçirməkdən ibarətdir. Ümumiyyətlə, ön xətt hərbi hissələri zəruri olan əmlaklarla təmin etmək ən vacib vəzifələrimizdən biridir.

Mərkəzi Hərbi Baytarlıq Laboratoriyası, Mərkəzi Əşya Bazası və Mərkəzi Ərzaq Anbarları ərazisində yeni inşa edilmiş saxlanclarla tanış olduqdan sonra bir daha əmin oluruq ki, ordu sıralarında xidmət edən şəxsi heyətin təminatı tam ödənilir. Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində apardığı uğurlu siyasətin bəhrəsini xalqımız aprel döyüşləri və Günnüt zəfərində qələbəmizlə dərindən hiss etdi. İnanıram ki, bu siyasət ən qısa zamanda ərazi bütövlüyümüzün bərpası ilə nəticələnəcək, yurd-yuvalarından didərgin düşən həmyerlilərimiz öz doğma el-obalarına qayıdacaq, Ali Baş Komandanımızın da qeyd etdiyi kimi, tezliklə üçrəngli bayrağımız Şuşada, Xankəndidə və bütün işğaldan azad ediləcək ərazilərimizdə dalğalanacaqdır.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Hərbi Dəniz Qüvvələrində "Konflikt jurnalistikası məktəbi"nin auditoriya təlimi keçirildi

*Bu günlərdə Hərbi Dəniz Qüvvələrində Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihəsinin növbəti auditoriya təlimi keçirildi.*




Tədbir iştirakçılarına mütəxəssislər tərəfindən Hərbi Dəniz Qüvvələrinin yaranma tarixi, hərbi gəmilərdə rabitə və radiotexniki vasitələrdən istifadə qaydaları, suüstü və sualtı müşahidə sistemləri, dəniz təhlükəsizliyi və cavabdehlik zonası, döyüş gəmiləri haqqında məlumat verildi. Həmçinin konflikt şəraitində yazan jurnalistlər Hərbi Dəniz Qüvvələrinin komanda məntəqəsi haqqında da məlumat aldılar. Bildirildi ki, bu məntəqə Hərbi Dəniz Qüvvələrinin idarə olunmasını həyata keçirir. Suüstü şərait haqqında operativ məlumatların Hərbi Dəniz Qüvvələrinə məxsus sahil və ada radio-texniki postlarda yerləşən radiolokasiya stansiyaları vasitəsilə alınaraq, real vaxt rejimində monitorlarda əks olunduğu haqqında məlumat iştirakçıların diqqətinə çatdırıldı.

Tədbir iştirakçıları Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin sosial-məişət şəraiti ilə yaxından tanış oldular. Sonda iştirakçılar xatirə şəkli çəkdirdilər.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Əsgərlərimiz ana qayğısı ilə əhatə olunublar





Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində dünya təcrübəsi nəzərə alınaraq mühüm addımlar atılır. Görülən işlərin nəticəsidir ki, ordumuz dünyanın ən güclü orduları sırasındadır.

Son vaxtlar hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə müasir standartlara cavab verən hərbi hissələr inşa edilir. Zabit və əsgərlərimizin dolğun qidalanması üçün bütün avadanlıqlarla təchiz edilmiş yeməkxanalar da tikilib. Şəxsi heyətin isti çörəklərlə təmin olunması üçün hərbi hissədə çörək sexləri quraşdırılıb. Bu istehsal sahəsi şəxsi heyəti nəinki çörəklə, həm də şirniyyat məmulatları ilə də təmin edir. Əsgər yeməkxanalarında qadın aşpazların çalışması bişirilən yeməklərin keyfiyyətini artırmaqla yanaşı, əsgərlərimizə ana qayğısını hiss etdirir.

Hərbi qulluqçulara ləziz təamlar hazırlayan aşpazlarımızla tanış olmaq imkanını qazanırıq və ilk həmsöhbətim Elmira Məmmədovadır. "Aşpazlıq sadəcə yemək bişirmək ilə bitmir. Hazırladığın hər təama öz sevgini qatmağı bacarmalısan. Vətənin müdafiəçiləri üçün yemək hazırlamaq ikiqat məsuliyyət tələb edir. Çalışırıq ki, bişirdiyimiz yeməklər dadlı alınsın. Mənim oğul övladım yoxdur, ancaq əsgərlərimizin hər biri mənim oğlumdur. Ana Vətənin keşiyində dayanan övladlarımın dadlı, həmçinin keyfiyyətli qidalanmaları üçün əlimizdən gələni əsirgəmirik. İnanıram ki, onlar da tezliklə bizlərə Qələbə sevincini daddıracaqlar".

Xəyalə Həsənova bildirdi ki, aşpaz yaradıcı, səbrli və dadlı yeməklər bişirmə qabiliyyətinə malik olmalıdır. "Hər birimiz üçün analarımızın bişirdiyi xörəklər əvəzsizdir. Çalışırıq ki, hazırladığımız təamlar əsgərlərin ürəyincə olsun, anaların bişirdiyi xörəklərdən seçilməsin, onlar ləziz və dadlı xörəklərlə qidalansınlar".

- Əsas məqsədimiz əsgərlərimizin sağlamlığıdır. Biz də öz növbəmizdə bişirdiyimiz ləziz təamlarla onların sağlamlığını qoruyub saxlamağa çalışırıq. Yemək saatlarında əsgərlərimizlə söhbət edirik və yeməklə bağlı fikirlərini, istəklərini nəzərə alırıq. Əsgərlərimiz gecə-gündüz torpaqlarımızın keşiyində dayanırlar. Onların həvəslə nahar etdiyini görmək biz anaları çox xoşbəxt edir. Vətənimizi xain düşməndən mətinliklə qoruyan gənclərimiz üçün yemək bişirməkdən qürurverici nə ola bilər?! Bunun üçün çalışırıq ki, bizə həvalə olunan vəzifənin öhdəsindən layiqincə gələk,



- bu sözləri əsgərlərimizi qayğı və sevgisi ilə əhatə edən Zülfiyyə İsmayılova dedi.

"Hərbi hissələrdə çalışan hər bir qadın əsgərlərimizə doğma ana, bacı kimi qayğı göstərməlidir", - deyə Vəsilə Məmmədova söhbətə başladı. - Biz əsgərlərimiz üçün dadlı xörəklər bişirməklə Vətən qarşısında vətəndaşlıq borcumuzu yerinə yetiririk. Yəni əsgərlərimiz nə qədər düzgün qidalansa, bir o qədər sağlam olar, komandirlərinin öyrətdiklərinə dərindən yiyələnərlər. Bu da ordumuzun döyüş qabiliyyətinin artması deməkdir. Hər bir ana övladının sağlamlığını istəyir.

Bizim bir arzumuz da var ki, övladlarımız işğal olunmuş torpaqlarımızı azad etsin, Şuşada, Laçında, Xankəndidə... üçrəngli bayrağımızı dalğalandırsınlar.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Yaponiya Cibutidə daimi hərbi baza yaradır



Yaponiya hökuməti xaricdə ilk daimi hərbi baza yaratmağı planlaşdırır.

Bu hərbi bazanı Cibutidə, Qırmızı dənizə çıxışda yerləşdirmək nəzərdə tutulur.

Hazırda Cibutidə Yaponiya özünümüdafiə qüvvələrinin dayaq nöqtəsi var və orada hərbi dəniz qüvvələrinin bir esminesi və iki patrul təyyarəsi yerləşdirilib. Onlardan Somali dəniz quldurlarına qarşı hərbi əməliyyatlar zamanı istifadə edilir. Son zamanlar onların sayının kəskin azalmasına baxmayaraq, Tokio bu obyekti genişləndirmək niyyətindədir. Bu məqsədlə Cibuti hakimiyyət orqanlarından 12 hektar ərazinin icarəyə götürülməsi və bu ərazidə kazarmaların, inzibati binanın və anbarın inşası nəzərdə tutulur.

## Əfqanıstan: "Taliban" hərəkatı ilə toqquşmada azı 30 polis əməkdaşı öldürülüb



Əfqanıstanın şimalında "Taliban" hərəkatının hücumu nəticəsində azı 30 polis əməkdaşı həlak olub.

Taliblər Samanqan əyalətində nəzarət-buraxılış məntəqələrinə hücum ediblər. Həlak olanların arasında polis rəisinin müavini polkovnik Hvani Tahirinin də olduğu bildirilir. "Taliban" hərəkatının döyüşçüləri 8 polis avtomobilini, 2 tankı, külli miqdarda silah-sursatı və ləvazimatı qənimət götürüblər.

Qeyd edək ki, Əfqanıstanda hökumət qüvvələri ilə kənd rayonlarında xeyli üstünlüyə yiyələnərək böyük şəhərlər istiqamətində hücumları genişləndirən "Taliban" hərəkatının silahlıları arasında qarşıdurmalar davam edir. Həmçinin ölkə ərazisində İŞİD qruplaşmasının da fəallığı artır. Əfqanıstanın milli müdafiə və təhlükəsizlik qüvvələri bütün ölkədə terrorçuluğa qarşı birgə əməliyyatlar keçirirlər.

## Çin, Malayziya və Tailand birgə hərbi təlim keçirəcək



Çin, Malayziya və Tailand silahlı qüvvələri oktyabrın 20-dən 29-dək birgə hərbi təlim təşkil edəcəklər.

Çinin Milli Müdafiə Nazirliyi təlimin məqsədinin üç ölkənin silahlı qüvvələrinin Cənubi Çin dənizində sülhü və sabitliyi birgə təmin etmək niyyətinin davamını nümayiş etdirmək, təcrübə mübadiləsini və əməkdaşlığı gücləndirmək, müxtəlif təhdidlərə birgə cavab vermək qabiliyyətini təkmilləşdirmək olduğunu bəyan edib.

"Sülh və dostluq: 2018" şərti adı altında təlimlər Malayziyanın iki ştatının dəniz şelfində keçiriləcək. Çindən 692 hərbi qulluqçu, habelə 3 hərbi gəmi, 2 helikopter, 3 "İl-76" təyyarəsi və 4 avtomobil təlimlərə qatılacaq.

## Ukrayna hərbi obyektlərinin təhlükəsizliyi üçün NATO-nun imkanlarından istifadə edəcək



Ukrayna hərbi anbarlarının, bazalarının təhlükəsizliyi üçün NATO-nun imkanlarından istifadə edəcək.

Bu barədə mətbuata açıqlamasında Ukrayna Xarici İşlər naziri Pavel Klimkin məlumat verib.

Nazir P.Klimkin qeyd edib ki, Ukraynada silah-sursat anbarlarında baş verən partlayışlardan sonra NATO ilə danışıqlar aparılıb və bununla bağlı əməkdaşlıq proqramı hazırlanıb.

Qeyd edək ki, son bir ildə Ukraynanın ən böyük silah-sursat anbarlarında partlayışlar baş verib. Nəticədə Ukrayna dövlətinə milyardlarla dollar ziyan dəyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunda yüngül atletika üzrə yarışlar keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının arenasında Azərbaycan Ordusunda yüngül atletika üzrə yarışlar keçirildi.*





Yarışların açılış mərasimi ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərasimdə Müdafiə Nazirliyi və ictimaiyyət nümayəndələri, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllim və tələbə heyəti iştirak edirdi.

Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin Döyüş Hazırlığı İdarəsinin Fiziki Hazırlıq və İdman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev yarış iştirakçılarını salamladı və onlara uğurlar arzuladı. Layiqli idmançının qalib gələcəyinə ümidvar olduğunu bildirdi. Müdafiə Nazirliyi rəhbərliyinin şəxsi heyətin fiziki hazırlığına daim diqqət yetirdiyini



dedi. Şöbə rəisi qeyd etdi ki, hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. "Yarışların keçirilməsində əsas məqsəd hərbi hissələrdə atletikanın daha da inkişaf etdirilməsi və bu idman növünün hərbi qulluqçular arasında geniş yayılmasını təbliğ etməkdir. Sürət, çəldlik, çeviklik və dözümlülük kimi keyfiyyətlərin nümayiş olunduğu bu yarışlar olduqca əhəmiyyətlidir."

Polkovnik onu da vurğuladı ki, hərbi idmançılar döyüş hazırlığında, təlim mərkəzlərində göstərdikləri çevikliyi və peşəkarlığı ilə təkcə Azərbaycan Ordusunda keçirilən yarışlarda deyil, ölkə miqyasında, həmçinin beynəlxalq yarışlarda da yüksək nailiyyətlər əldə edirlər.

Beynəlxalq qaydalara uyğun olaraq keçirilən yarışda müxtəlif birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi qulluqçularının cəlb olunduğu tərkibi 12 nəfərdən ibarət olmaqla 15 komanda iştirak etdi. Birinciliyi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasından təyin olunmuş hakimlər idarə etdilər.

Reqlamentə əsasən, kişilər 100 və 3000 metrə qaçış, hündürlüyə və uzunluğa tullanma, estafet (4x400), qadınlar isə 100 və 1000 metrə qaçış yarışlarında güclərini sınadılar.

Təntənəli açılış mərasimindən sonra hakimlər tərəfindən iştirakçılara qaçış qaydaları, düzgün tullanış mövqeyi, tullanma texnikasının əsasları haqqında ümumi məlumat verildi.

Öncə start xəttinə çıxan kişi sprinterlər 100 metr məsafəyə qaçdılar. "Diqqət!" komandası ilə idmançılar irəli əyildi və bədənlərinin ağırlığını əlləri üzərinə saldılar. "Start" komandasından sonra dərhal və böyük sürətlə irəli sıçradılar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Hərbi Hava Qüvvələrinin atleti leytenant Emin Nəsirov məsafəni 11.69 saniyəyə qaçaraq birinciliyi əldən vermədi. "Şəmkir" komandasını təmsil edən kiçik çavuş Cahangir Almərdanlı ikinci yerə, əsgər Amil Atakişiyev ("Bərdə") isə üçüncü yerə sahib oldular.

Bu məsafəyə yarışda qadın idmançılar da iştirak etdilər. Əzmkarlığa görə kişi idmançılardan geri qalmayan qadınlar arasında 100 metr məsafəyə qaçışda "Şəmkir" komandasının idmançısı çavuş Ülkər Sadıqova bütün rəqiblərini qabaqlayaraq finişə birinci çatdı. Qeyd edək ki, ötənilki yarışda da çavuş Ülkər Sadıqova birinci olmuşdu. Bu növdə Hərbi Hava Qüvvələrinin atleti əsgər Günel Ağayarova finişə ikinci çataraq gümüş medal qazandı. Əsgər Aitən Hacıyeva ("Beyləqan") isə üçüncü nəticə göstərdi.

Qadınlar həm də 1000 metr məsafədə yarışların medalları uğrunda mübarizə apardılar. Əsgər Pərvanə Heydərova (HHQ) daha yaxşı çıxış etməklə bütün rəqiblərini qabaqlayaraq finişə birinci çatmağı bacardı. Yarışın qalibi olaraq komandasına vacib xallar qazandırdı. "Beyləqan" komandasının atleti qadın hərbi qulluqçu Samilə Əhmədli yarışı ikinci yerdə başa vurdu və birinciliyin gümüş medalını qazandı. Əsgər Kəbirə Süleymanova mübarizəni üçüncü yerdə başa vurdu və mükafatçılar sırasında öz yerini təmin etdi.

3000 metr məsafəyə qaçış üzrə kişilər arasında keçirilən yarışda finişə 9 dəqiqə 59 saniyə ilə "Beyləqan" komandasının atleti əsgər Qəşəm Səfərov çatdı. Cüzi fərqlə qalibdən geri qalan "Bərdə" komandasını təmsil edən əsgər Təhməz Abdullayev finişə ikinci, Hərbi Hava Qüvvələrinin idmançısı əsgər Murad İlmanov isə üçüncü çatdı.

Uzunluğa tullanmadan öncə hakim iştirakçılara qaydalar barədə məlumat verdi. Bildirdi ki, tullanmalar üçün nəzərdə tutulan çökək qaçış cığırı ilə bərabər səviyyədə qumla doldurulub və yarış iştirakçılarına üç cəhd etmək hüququ verilir. Bu cəhdlərdən ən yaxşı nəticə hesaba alınır. "Sıçrayışın uzunluğu tirin ön xəttindən bədənin hər hansı bir üzvünün qum üzərində buraxdığı ən yaxın izə qədər ölçülür. Elə ola bilər ki, idmançı çox uzağa, hətta rekord həddini göstərən bayraqcıqdan da o tərəfə tullanır. Lakin yerə enərkən müvazinətini saxlaya bilmir və arxaya yıxılaraq ya əlinə söykənir, ya da oturur. Sıçrayışın uzunluğu da bu izə qədər ölçülür. Bu qaydanın ədalətliliyini belə bir məsələ izah etmək olar. Təsəvvür edək ki, həmin idmançı dərin yarğanın üstündən tullanmışdır, lakin yarğanın o biri tərəfində özünü saxlaya bilməyib yarğana yıxılmışdır. Axı onda heç kim deməz ki, o, yarğanın üstündən tullanıb keçib." Sonra idmançılar sıra ilə öz məharətlərini nümayiş etdirdilər. Yekun nəticəyə əsasən, "Bakı" komandasını təmsil edən əsgər Niyaməddin Hüseynov 5.96 metr uzunluğu ram etməklə bütün rəqiblərindən üstün ustalıq nümayiş etdirdi və yarışın qızıl medalçıları sırasına adını yazdırdı. Hərbi Hava Qüvvələrinin idmançısı əsgər Elvin Qafarov 5.82 metrlik nəticə ilə ikinci oldu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Mirağa Əliyev isə bürünc medala layiq görüldü.

Hündürlüyə tullanma yarışında "Bərdə" komandasını təmsil edən gizir Samir Xəlilov 1.75 metr hündürlüyün öhdəsindən gəlməklə, keçən ildəki qalibiyyətinin təsadüfi olmadığını sübut etdi. "Bərdə" komandasının digər təmsilçisi kiçik çavuş Sərvər Şahverdiyev ikinci, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Hüseyin Hüseynov üçüncü yerə layiq görüldülər.

Komanda xarakterli 4x400 metr məsafəyə estafet yarışları tamaşaçılar tərəfindən böyük çoşqu ilə izlənildi. "Diqqət!" komandası ilə idmançılar ağ xətlərlə ayrılan qaçış cığırlarında yerlərini tutdular. Bütün idmançıların qaçış məsafələrinin bərabər olması üçün onların start yerləri cığırların uzunluğuna uyğun olaraq qabağa çəkildi. Qaydalara əsasən cığırları dəyişmək olmazdı. "Start" komandasından sonra iştirakçılar cəld hərəkətə başladılar. Onların hərəkətə başlaması ilə komandanın növbəti üzvləri start mövqeyində yerlərini tutdular. Hər idmançı təyin olunmuş məsafəni qaçaraq əlində tutduğu estafet çubuğunu komanda yoldaşına verir, idman çubuğunu alan idmançı isə yarışı davam etdirirdi. Gərgin mübarizə şəraitində keçən yarışların bu növündə Hərbi Hava Qüvvələrini təmsil edən dördlük finişə birinci çatdı, fəxri kürsünün ən yüksək pilləsində yerlərini təmin etdilər. "Şəmkir" komandasının idmançıları ikinci yerdə qərarlaşaraq, gümüş medalla kifayətləndilər. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarından ibarət dördlük isə üçüncü yeri tutdu.



**Leytenant
Samir HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir biabırçı qalmaqal yaşanıb. Xidmət yoldaşları ilə cinsi əlaqədə olduğu aşkar edilən Ermənistan ordusunun hərbi qulluqçusunun tərxis olunduğu bildirilir.

Xəbəri yayan sosial şəbəkə istifadəçisinin sözlərinə görə, 5-ci bölükdə müqaviləli xidmət edən Mher Davityanın əvvəllər də xidmət yoldaşları ilə cinsi əlaqədə olmasından şübhələnsələr də, bunu sübut edə bilməyiblər.

Bu yaxınlarda Ermənistan ordusunun hərbi qulluqçusu M.Davityanın bu biabırçı əməli sübuta yetirilib və o ordu sıralarından dərhal tərxis edilib.

* * *

İşğal olunmuş Ağdərə rayonunun ərazisində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində əsgərlər arasında növbəti kütləvi zəhərlənmə hadisəsi qeydə alınıb. Məlumatı verən şəxsin bildirdiyinə görə, bu yaxınlarda 6-cı alayda xidmət edən xeyli sayda hərbi qulluqçu zəhərlənmədən xəstəxanaya yerləşdirilib.

Zəhərlənmədən ölən olmasa da, istifadə müddəti keçmiş qida məhsullarını əsgərlərə verən hərbi hissədə yoxlamalar başlayıb.

Xəbərdə o da iddia edilir ki, bir neçə başqa bölmədə də istifadə müddəti keçmiş qida məhsulları aşkar edilib.

Fakt ictimaiyyətdən gizlədilsə də, hərbi polis tərəfindən araşdırma aparılır.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir əsgərin döyülməsi faktı qeydə alınıb.

Məlumatda deyilir ki, Yervand yaşayış məntəqəsində xidmət edən erməni əsgər Yura Babayanın valideynləri övladlarının komandirlər tərəfindən mütəmadi olaraq döyülməsi ilə bağlı hərbi polisə şikayət ediblər.

Fakt ictimaiyyətdən gizlədilsə də, hadisə hərbi polis tərəfindən araşdırılır.

**Hazırladı:
İsa ELDAROĞLU**

Gizir Xasıyev Elvin Seymur oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rzayev İbad İmran oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 831
Nüsxə 3525